

# Bu günümüzlə səsləşən "Koroğlu"

**Operanın premyerasının 70 illiyi münasibətilə**

Azərbaycan xalqının dünya epik inciləri xəzinəsinə daxil olmuş ən geniş yayılan və dildən-dilə düşən nümunələrindən biri «Koroğlu» dastanıdır.

Koroğlu haqqındakı xalq qəhrəmanlıq dastanı XVI əsrin axırları və XVII əsrin əvvəllərində Azərbaycan ərazisində baş vermiş real tarixi hadisələri özündə əks etdirir.

Bu dastan üsyan etmiş xalqın başçısı, cəsur döyüşçü Koroğlunun adı ilə bağlıdır. Koroğlu özünün bütün qüvvə və bacarığını xalqın xidmətinə sərf edir, o yalnız qılıncı ilə deyil, həm də sazı-sözü ilə düşmənə qalib gəlir. Onun nəğmələri düşmənə qarşı qəzəb və kin, ədalət naminə mübarizə, mərdlik və qəhrəmanlığa çağırış kimi səslənir.

*«Mən «Koroğlu» operasını yazadarkən xalq incəsənəti xəzinəsindən, böyük qəhrəman haqqında gözəl dastanlardan, Koroğlu kimi gözəl qəhrəmanlar yetişdirmiş xalqdan, onun bəslədiyi böyük məhəbbətdən ilham almışam».*

*Üzeyir Hacıbəyov*

XIX əsrin bir sıra tədqiqatçıları Koroğlunun tarixi şəxsiyyət olduğunu göstərir və bununla əlaqədar maraqlı mülahizələr söyləyirdilər. Azərbaycanın böyük alim və mütəfəkkirlərindən biri Koroğlunun nəğmələrinə və onun haqqındakı rəvayətlərə yaxşı bələd olan Abbasqulu ağa Bakıxanov 1837-ci ildə yazırdı ki, Koroğlu Türkiyə ilə İran sərhədləri arasında yaşayıb, onun igidliyi hələ də xalq dastan və rəvayətlərində mədh edilir.

«Koroğlu» dastanı real tarixi həqiqətlə əlaqədardır. Dastanda təsvir olunan hadisələr o dövrün ictimai-siyasi mənzərəsini əks etdirir.

Müdrik və qorxmaz igidlər sərkərdəsinin şan-şöhrəti çox-çox uzaqlara yayılmışdır. Onun şəninə qoşulan nəğmələr, rəvayətlər və dastanlar dillər əzbəri olmuş, ölkələr dolaşmışdır.

Geniş yayılmış «Koroğlu» dastanının süjeti əsasında Üzeyir Hacıbəyov tərəfindən eyni adlı xalq-qəhrəmanlıq operasının yaradılması da Azərbaycanda qəhrəman Koroğlu adının məşhur olduğunu və ümumxalq tərəfindən çox sevildiyini sübut edir.

1937-ci il 30 aprel. Bakı. M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı.

Dahi bəstəkar Ü.Hacıbəyovun «Koroğlu» operasının premyerası gedir. Tamaşaçılar intizar içindədir... Pərdə yavaş-yavaş açılır. Hamını valeh edən, ürəkləri ovsunlayan, qəlbləri riqqətə gətirən musiqi sədaları altında səhnə mənzərələri canlanır...

Çənlibel. Qırat kişnəyib şahə qalxır. Dağ cüssəli Koroğlu nərə çəkir. Misri qılınc parlayır. Xalqı soyub, talan edənlərə qarşı qeyrət döyüşü başlayır.

Koroğlu əlində saz düşmənə meydan oxuyur...

O gün «Koroğlu» operası həyata belə qədəm qoydu.

«Koroğlu»nun ilk tamaşası bütün mədəniyyətimiz tarixində bayram oldu. Bu opera Azərbaycan dühasının yaratdığı, heç yerdə bənzəri, təkrarı olmayan bir əsər idi.

Ü.Hacıbəyovun uzun illərdən bəri topladığı yaradıcılıq təcrübələri, dünya musiqi mədəniyyətini dərindən öyrənməsi və böyük çılğın istedadı həmin gün yeni qüdrətlə səsləndi.

Operanın mürəkkəb və zəngin simfonik quruluşu, milli musiqi alətlərimizlə Avropa musiqi alətlərinin həmahəng bir dildə danışması, mahir ustalıqla yazılan vokal partiyaların emosional təsiri, qəhrəmanlıq səhnələrini ifadə edən mürəkkəb və həyəcanlı musiqi nömrələri, xorun əzəmətli çıxışları və bütün bunların vahid ahəngi Üzeyir sənətinin ecazkar qüdrətini bir daha nümayiş etdirirdi.

«Koroğlu» operasının yaranmasından söhbət açmazdan əvvəl, tarixi bir material haqqında kiçik məlumata ehtiyac duyuruq.

Üzeyir bəy elə bir əsər yaratmaq istəyirdi ki, burada klassik musiqiyə xas olan monumentallıq, daxili dinamika, ictimai həyat hadisələrinin fonunda qəhrəmanlıq ruhu və məhəbbətin gücü dolğun əks olunsun.

Hələ 1919-cu ildə Üzeyir bəy ailəsi ilə Kocori

yaylasında istirahətdə olarkən, orada əzəmətli Koroğlu qalasını görür. Deyilənlərə görə o, bu qalaya baxmaqdan doymazmış. Üzeyir Hacıbəyov eyni zamanda bir aşığın ifasında «Koroğlu» dastanını dinləyir. Bütün bunlar ona çox təsir edir. Üzeyir bəy burada ikən başa düşür ki, artıq yeni operasının süjetini tapmışdır.

«Koroğlu»nun süjeti öz əhatəliliyinə görə, Ü.Hacıbəyovun çoxşaxəli istedadı üçün olduqca münasib idi.

«Koroğu» operasının libretto müəllifi, milli tariximizin, folklorumuzun gözəl bilicisi M.S.Ordubadi öz xatirələrində yazırdı: «Bir gün Üzeyir bəy mənim yanıma gəldi. Nədənsə o, çox tərəddüdlü görünürdü. Nəhayət, o, öz qəlbini açıb dedi:

- Koroğlu dastanı əsasında bir opera yazmaq xəyalındayam. Sən bilirsən ki, Koroğlunun qəhrəmanlıq siması müxtəlif variantlar içərisində itib getmişdir. Koroğlu kimi səbatlı bir üsyançını orta əsrlərə məxsus çapğın və eşqbaz kimi qələmə verirlər. Buna görə də biz Koroğlu epoxasının siyasi və ictimai mündəricəsini yazdığımız operada aydınlaşdırmalıyıq. Xalqımız Koroğlunun möhkəm bir qəhrəman olduğunu, öz əsrinin məşhur üsyan təşkilatçısı kimi feodallara qarşı mübarizə apardığını səhnədə görməlidir.

Üzeyir bu sözlərdən sonra mənə bir daha müraciət etdi:

- Deməli ki, biz bunu qərara alırıq! – dedikdə, mən də əlimdə çay stəkanını yerə qoyub: - Bəli, qərarlaşdıq, - deyə cavab verdim».

Mübariz, öz yüksək amalı yolunda qorxulu və keçilməz sərhədləri aşaraq fədakarlıq göstərən qəhrəmanın obrazını yaradıcılıq təxəyyülündə canlandıran dahi bəstəkar opera üzərində gərgin işə başlayır.

Üzeyir bəy yazırdı: «Müasir musiqi mədəniyyətinin nailiyyətlərindən istifadə edərək, qarşımda formaca milli opera yazmaq məsələsi qoymuşdum... Belə bir vəzifəni yerinə yetirmək üçün bəstəkardan ciddi nəzəri hazırlıq tələb olunmaqla bərabər, xalq yaradıcılığını, musiqi folklorunu dərindən öyrənmək, musiqi dilini mənimsəmək, xalq ilə onun anlaşdığı dildə danışmaq istedadını kompozitora verən sadəlik və aydınlığı dərk etmək tələb olunur».

Qeyd etmək lazımdır ki, Üzeyir Hacıbəyov «Koroğlu» üzərində işə başlamazdan daha 20 il qabaq Azərbaycan xalq musiqisinin əsasları və köklərini öyrənməyə başlamış, bunu əsərlərində tətbiq etmişdi. O, həmçinin, dünya klassik musiqisini öyrənir, bədii ustalığını zənginləşdirirdi.

Üzeyir bəy «Koroğlu»ya qədər özünün 6 operasını – «Leyli və Məcnun», «Şeyx Sənan», «Rüstəm və Söhrab», «Şah Abbas və Xurşudbanu», «Əsli və Kərəm», «Harun və Leyla», 3 musiqili komediyasını – «Ər və arvad», «O olmasın, bu olsun», «Arşın mal alan», xalq çalğı alətləri üçün 2 fantaziyasını, xalq mahnı işləmələrini, eləcə də, bir sıra mahnılar, kantatalar yazmışdır.

Məlumdur ki, Ü.Hacıbəyovun ilk əsərləri xalq musiqisi ilə əlaqədardır. Bu əsərlərdə şifahi yaradıcılığın aşkar nəzərə çarpan ənənələri hifz olunmuşdur.

Üzeyir bəyin ilk opera və operettalarında Azərbaycan xalq musiqisinin bütün janrlarından (muğam, mahnı, rəqs, aşıq sənətindən) bəhrələnməsi çox səciyyəvi haldır.

Bu əsərlərdə şifahi yaradıcılıq ənənəsi bəstəkarlıq sənətinin ayrı-ayrı cəhətləri ilə qovuşdurulur. Belə ki, xalq musiqisilə orijinal bəstəkar musiqisinin yanaşı mövcudluğu reallığa çevrilir.

Üzeyir bəy «Leyli və Məcnun», «Əsli və Kərəm», «O olmasın, bu olsun», «Arşın mal alan»da qazandığı nailiyyətləri «Koroğlu» operasında uğurla inkişaf etdirir.

Janr və məzmun etibarı ilə bir-birindən fərqlənən əsərlərində bəstəkar major-minor sistemini Azərbaycan ladları ilə birləşdirir, klassik musiqi formalarını xalq musiqisi ildə sintez etmək vəzifəsini qarşıya qoyur.

Opera janrının hər bir cəhətini ətraflı öyrənən, böyük yaradıcılıq təcrübəsinə malik olan bəstəkar bütün bunların yekununda «Koroğlu» operasını yazmaq üçün özündə hazırlıq hiss edib, 1932-ci ildə bu əsəri yazmağa başlayır.

Üzeyir bəy əsərini belə xarakterizə edirdi: «Koroğlu» operasında, bilavasitə, xalq yaradıcılığından götürülmüş əsl xalq melodiyaları yoxdur. Mən xalqdan hazır nəğmələr almamışam, yalnız xalq yaradıcılığının əsaslarını öyrənmişəm. Operadakı ariya, duet, ansambllları Azərbaycan musiqi ladlarında, Azərbaycanın musiqi folkloru əsasında qurmuşam. «Koroğlu»nu aşıqlar tərənnüm etmiş və ona görə də, operada üstün gələn stil aşıq stilidir».

Öz yaradıcılığına daim tələbkar və tam ciddiliklə yanaşan Üzeyir bəy əsər üzərində yorulmadan çalışır.

Ə.Bədəlbəyli öz xatirələrində yazırdı: «Ü.Hacıbəyov əsər üzərində 4 il çalışmışdır. Lakin əsərin bəzi musiqi parçalarının melodikasının müəllifin zehnində çox-çox əvvəllərdən nəqş bağladığı da məlumdur. Böyük bəstəkar əsərinin hər səhifəsini, hər parçasını dönə-dönə cilalayır, lazım gəldiyi hal-



da tamamilə yenidən bəstələyirdi. Burada həm mətn, həm də musiqi büsbütün yeni şəkildə, yeni biçimdə yaradılırdı».

Əsərin librettosuna da, musiqisi kimi ciddi yanaşan bəstəkar, onun ədəbi dilinin təbiiliyinə xüsusilə fikir verirdi.

Üzeyir bəyin fikrincə, mövzusu XVII əsrə mənsub bir əsəri bugünkü ədəbi dilin istilahları ilə yazmaq səhvdir. Bu məqsədlə də «Koroğlu»da «müharibə» sözünü «cəng», «qoşun» kəlməsini «ləşkər» və s. əsrə müvafiq kəlmələrlə əvəz etməyə çalışırdı. O, hətta şerlərin ölçülərində də həmin fikri həyata keçirməyi lazım bilirdi.

Üzeyir bəy elə bir əsər yaradır ki, onu dinləyən hər bir kəs Koroğlu və onun silahdaşlarının vuruşunu haqqın, ədalətin, insanlığın vuruşu və özünütəsdiqi kimi mənalandırır.

«Koroğlu» Üzeyir fantaziyası və istedadının qüdrət və əzəmətinin ifadəsi idi.

Xalqımızın görkəmli müğənnisi Bülbül öz xatirələrində yazırdı ki, «Koroğlu» operası barəsində uzun müddətli söhbətimin sonunda Üzeyir bəy zarafatcasına dedi:

- Yaxşı, indii mən elə bir opera yazacam ki, hamını yerindəcə donduracaq.

Bülbül isə ona belə cavab verir:

- Mən isə, Koroğlu partiyasını elə ifa edəcəyəm ki, onu bir daha heç kim o cür oxumayacaq.

Doğrudan da, hər bir zarafatda bir həqiqət var. Bu günlərə qədər Azərbaycanda nə «Koroğlu» tək gözəl bir opera yazılmış, nə də məhz Bülbül kimi onu ifa edən olmuşdur.

Librettosu H.İsmayılov və M.S.Ordubadi tərəfindən yazılaraq Üzeyir dühası ilə xalq musiqisinin ecazkar dilində zirvəyə qaldırılan bu əsərə rejissor İsmayıl Hidayətzadə quruluş vermişdir. Tərtibatçı rəssam isə R.Mustafayev idi. Dirijor pultu arxasında Üzeyir bəy özü durmuşdu.

Koroğlu rolunun ilk ifaçısı unudulmaz sənətkarımız Bülbül idi. Nigar rolunu Gülarə İskəndərova ifa etmişdir. Digər rolların ifaçıları X.Haqverdiyev, M.Bağırov, Ə.Zülalov, Q.Hüseynov, V.Mustafayev, M.Paşayeva olmuş, rəqslərə Q.Almaszadə quruluş vermişdir.

Üzeyir bəy «Koroğlu» ilə milli musiqi təfəkkürümüzü yeni inkişaf mərhələsinə qaldırdı.

«Koroğlu»nun musiqisi Azərbaycan, ümumiyyətlə, bütün Şərq musiqi mədəniyyətinin parlaq şəkildə təsdiqinə və dünya miqyasına çıxarılmasına imkan verdi.

Üzeyir Hacıbəyovun milli musiqi ənənələri əsasında yaratdığı «Koroğlu» operası böyük bir mədəni hadisə, Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm mərhələ oldu. «Koroğlu» operası ilə Azərbaycan teatrı istər məzmun, istərsə də forma etibarı ilə daha da zənginləşdi, yeni bir keyfiyyət kəsb etdi. Opera həm dastanı yaşatdı, həm də Koroğlu əfsanəvi qəhrəmandan real xalq qəhrəmanına çevrildi.

Sonralar «Koroğlu»nu Ş.Bədəlbəyli, S.Dadaşov, M.Məmmədov tamaşaya qoydular.

Səhnəmiz Koroğlu rolunun L.İmanov, A.Məlikov, Nigar rolunun F.Əhmədova, F.Qasımova kimi mahir ifaçılarını tapdı. Onların hər birinin ayrıca Koroğlusu, Nigarı oldu, hər biri öz yaradıcılıq üslubuna görə bu rolları səhnədə təcəssüm etdirdi.

«Koroğlu» 1938, 1959-cu illərdə Moskvada Azərbaycan musiqi incəsənəti dekadasında böyük müvəffəqiyyət qazanmışdı. 1941-ci ildə Azərbaycan teatrı operanı İranda göstərmiş, tamaşaçıların böyük rəğbətinə səbəb olmuşdur.

«Koroğlu» operasına görə Ü.Hacıbəyov Stalin mükafatına layiq görülmüşdür.

Hacıbəyovun «Koroğlu» operasının ilk tamaşasından 70 il keçir. Bu opera 70 il bundan qabaq ilk səhnə təcəssümünü görsə də, onun məntiqi mənası, ruhu yenidir.

Bu gün «Koroğlu» bəlkə öz dövründə olduğundan daha artıq müasir, təzə, təravətli səslənir.

Biz müharibə şəraitində yaşayırıq. İşğal altında olan Azərbaycan torpağının, əsirlikdə olan Azərbaycan qadınının, qızının, oğlunun gözü yoldadır. O, öz «Koroğlu»sunun yolunu gözləyir.

Biz inanırıq ki, dahi Üzeyir bəyin «Koroğlu» dastanı əsasında yazdığı «Koroğlu» operasının hər sədası xalqı oyanışa səsləyəcək, onun qoluna Koroğlu gücü, ürəyinə Koroğlu cəsarəti verəcək.

Biz ümidvarıq ki, xalqımız Koroğlu tək. Üzeyir bəyin «Koroğlu»su tək yenilməz olacaq, öz varlıq və şərəfini məhz Koroğlu tək qoruyub saxlayacaq, torpaqlarına sahib çıxacaqdır.

**Sevinc AQİLQIZI,**
**Üzeyir Hacıbəyovun ev-muzeyinin böyük elmi işçisi**